**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BƏSTƏKAR EMİN SABİTOĞLUNUN MAHNI YARADICILIĞININ ÜSLUB XÜSUSİYYƏTLƏRİ

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Səadət Ramiz qızı İmanova**

Fəlsəfə doktoru
elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Bakı Xoreoqrafiya Akademiyasının "Musiqi fənləri" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: fəlsəfə elmləri doktoru, professor
**Gülnaz Abutalıb qızı Abdullazadə**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
**İradə Tofiq qızı Köçərli**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Arzu Raiz qızı Məmmədova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Aynurə Rəsul qızı Abuşova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya Şurası

Dissertasiya Şurasının
sədri: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
______________ **Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya
Şurasının elmi katibi: sənətşünaslıq doktoru, dosent
______________ **Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın
sədri: sənətşünaslıq doktoru, dosent
______________ **Aytac Elxan qızı Rəhimova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Bütün dövrlərdə milli musiqi mədəniyyətinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində ən mühüm vəzifələrdən biri görkəmli bəstəkarların yaradıcılıq irsinin dərindən və hərtərəfli araşdırılmasıdır. Azərbaycan bəstəkarlarının yaradıcılığının bir əsrlik inkişaf tarixində istedadlı bəstəkarların musiqi irsinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir, belə ki, milli bəstəkarlıq məktəbi dünya akademik musiqisində nadir rast gəlinən təzahürlərdən biridir. Milli ənənəvi musiqinin və dünya klassik musiqi incəsənətinin çoxəsrlik ənənələrinin üzvi birləşməsi əsası dahi Üzeyir Hacıbəyli tərəfindən qoyulmuş Azərbaycan bəstəkarlıq məktəbinin müəyyənedici keyfiyyətidir və bu, hər bir Azərbaycan bəstəkarının yaradıcılığında həmişə müxtəlif şəkildə öz ifadəsini tapır. Bu baxımdan tədqiqatçının bu və ya digər Azərbaycan bəstəkarının yaradıcılığının müəyyən sahəsinin tədqiqinə müraciəti milli musiqi elminin və mədəniyyətinin ən aktual məsələlərindəndir.

Bəstəkar Emin Sabitoğlunun mahnı yaradıcılığı Azərbaycan musiqi sənətinin elə bir mühüm bir rəmzinə aiddir ki, onun vasitəsilə Azərbaycan xalqının və onun ayrı-ayrı görkəmli nümayəndələrinin yaratdığı musiqinin bütün gözəlliklərini və mükəmməlliyini asanlıqla hiss etmək olar. Bəstəkarın mahnılarını dinləyəndə ona biganə yanaşmaq mümkün deyil. Hər bir azərbaycanlı üçün E.Sabitoğlunun mahnıları əziz və doğmadır. Bunun səbəbi isə bəstəkarın musiqi dili ilə milli musiqi sənəti arasında olan dərin bağlılıqdır. Özünəməxsus parlaq və asanlıqla seçilən musiqi yaradıcılığına malik olan E.Sabitoğlu ölkəmizdə doğulub boya-başa çatan hər kəslə tanış, yaxın və başa düşülən musiqi simvollarının dilində danışır. E.Sabitoğlunun mahnılarının böyük populyarlığa malik olması, onun əsərlərinin həm professionallar, həm də sadə dinləyicilər tərəfindən eyni dərəcədə sevilməsi dəfələrlə bəzi tədqiqatçıların bəstəkarın mahnı yaradıcılığının tədqiqinə müraciət etməsinə səbəb olmuşdur. Belə tədqiqatçılar sırasında İ.Əfəndiyevanın[1],

[1] Əfəndiyeva, İ.M. Emin Sabitoğlu / İ.M.Əfəndiyeva. – Bakı: Şərq-Qərb, – 2014. – 24 s.

C.Mahmudovanın[2], R.Zöhrabovun[3], F.Əlizadənin[4] publisistik əsərləri xüsusilə diqqətəlayiqdir. Bununla yanaşı, hazırkı dövrdə bəstəkar E.Sabitoğlunun beş topluya daxil edilmiş mahnılarının üslub xüsusiyyətlərini tam şəkildə əks etdirən elmi araşdırmalar hələ də mövcud deyildir.

**Tədqiqatın obyekti və predmeti.** Bu elmi işin **obyekti** bəstəkar E.Sabitoğlunun "Lirik mahnılar", "Dərələr", "Bakı, sabahın xeyir", "Gözümdə Leylisən", "Nə gözəldir Azərbaycan" adlı beş toplusuna daxil edilmiş bütün mahnılardan ibarətdir.

Təqdim olunan elmi tədqiqatın **predmetini** bəstəkar E.Sabitoğlunun beş toplusuna daxil edilmiş mahnılarının üslub xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Təqdim olunan tədqiqatın məqsədi bəstəkar Emin Sabitoğlunun beş toplusuna daxil edilmiş mahnıların üslub xüsusiyyətlərinin dərindən və hərtərəfli şəkildə öyrənməkdir.

Yuxarıda göstərilən məqsədə yetişmək üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

–Emin Sabitoğlunun beş toplusuna daxil edilmiş mahnıların tematik məzmunu və janr palitrasının müəyyən edilməsi;

–Bəstəkarın mahnılarının struktur təşkili xüsusiyyətlərinin öyrənilməsi;

–Emin Sabitoğlunun mahnılarında poetik və musiqi formalarının qarşılıqlı əlaqə prinsiplərinin təhlil edilməsi;

–Bəstəkarın musiqi dilinin əsas elementlərinin ətraflı tədqiq olunması;

–E.Sabitoğlunun mahnılarında melodik dilin üslub xüsusiyyətlərinin və melodik intonasiya məzmununun müəyyən edilməsi, Azərbaycan ənənəvi musiqisinin mənşəyinin mahnıların intonasiya dilində müəyyənləşdirilməsi və E.Sabitoğlunun

---

[2] Mahmudova, C.E. Emin Sabitoğlu / C.E.Mahmudova. – Bakı: Şərq-Qərb. – 2016. – 145 s.

[3] Zöhrabov, R.F. Bəstəkarlarımızın portreti / R.F.Zöhrabov. – Bakı: Gənclik, –1997. – s. 71-75.

[4] Əlizadə, F.A. Bəstəkar Emin Sabitoğlunun portreti: Emin Sabitoğlunun yaradıcılığı haqqında // – Bakı: Qobustan, – 1981. №2, – s. 74-76.

mahnılarında melodiyanın dramaturji təşkili prinsiplərinin açıqlanması;

–Bəstəkarın mahnılarında məqam-tonallıqların əsasının öyrənilməsi;

–E.Sabitoğlunun mahnılarında metrik və ritmik təşkilin səciyyəvi xüsusiyyətlərinin analitik təhlilinin izlənilməsi;

–E.Sabitoğlunun mahnılarında fortepiano və vokal partiyaların qarşılıqlı intonasiya xüsusiyyətlərinin öyrənilməsi.

**Tədqiqat metodları.** Təqdim olunan tədqiqatın metodologiyası aparıcı yerli və xarici elmi işlərdə əldə olunan qənaətlərə əsaslanır. Tədqiqatın yuxarıda göstərilən məqsəd və vəzifələri təqdim olunan elmi tədqiqatın metodoloji əsasını müəyyənləşdirir. Təqdim olunan dissertasiya işinin əsas məqsədi bəstəkar Emin Sabitoğlunun mahnılarının üslub xüsusiyyətlərinin dərindən və hərtərəfli şəkildə tədqiqi olduğundan, təhlil elmi işimizin metodologiyasını təşkil edir. Hərtərəfli analitik yanaşmanın tədqiqatın metodologiyası kimi seçilməsi onun tədqiqatın obyektini dərindən və hərtərəfli şəkildə öyrənmək imkanları ilə bağlıdır. Qeyd etmək lazımdır ki, tədqiqat prosesində nəzəri analitik təhlil, xüsusilə struktur təşkili istiqamətlərinin öyrənilməsi, eləcə də bəstəkarın musiqi dilinin elementlərinin üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsi aparıcı əhəmiyyət kəsb edir. Təqdim olunan tədqiqatda E.Sabitoğlunun mahnılarında məqam-tonallıqların əsasının tədqiqi kimi mühüm cəhətin metodologiyasının əsas mənbəyini dahi Ü.Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları"[5] adlı fundamental əsəri təşkil edir. E.Sabitoğlunun mahnılarında poetik və musiqi formalarının qarşılıqlı əlaqə prinsiplərinin öyrənilməsinin metodoloji əsasını C.Mahmudovanın[6] elmi araşdırmaları təşkil etmişdir.[5]

Bu dissertasiya tədqiqatı yuxarıda göstərilən problemlərin işlənməsində Ü.Hacıbəyli, M.İsmayılov, B.Hüseynli, I.Abezqauz, E.Abasova, C.Mahmudova, G.Abdullazadə, E.Babayev, R.Zöhrabov,

---

[5] Hacıbəyli, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyli. – Bakı: Şərq-Qərb, – 2019. – 360 s.

[6] Mahmudova, C.E. Azərbaycan xalq və bəstəkar mahnılarının mətn xüsusiyyətləri / C.E.Mahmudova. – Bakı: ADPU. – 2014. – 122 s.

İ.Əfəndiyeva, T.Məmmədov, G.Mahmudova kimi milli musiqişünasların sanballı tədqiqatlarına əsaslanır.

Təqdim olunan tədqiqatın metodologiyasında xarici tədqiqatçıların əsaslı elmi əsərləri heç də az əhəmiyyət kəsb etmir. Bunlar B.Asafyev, V.Bobrovski, V.Vasina-Qrossman, V.Xolopova, V.Çukkerman,L.Mazel, S.Svetlanova və başqalarının elmi əsərləridir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

–Bəstəkar Emin Sabitoğlunun mahnı yaradıcılığının özünəməxsus üslubu;

–Emin Sabitoğlunun mahnılarının tematik və janr müxtəlifliyi;

–Bəstəkarın mahnı yaradıcılığında şifahi ənənəli Azərbaycan musiqisinin üslub xüsusiyyətlərinin aşılanması;

–Bəstəkarın mahnı yaradıcılığında Azərbaycan bəstəkarlıq məktəbinin ənənələrinə əsaslanması;

–E.Sabitoğlunun mahnı yaradıcılığında üslub vəhdəti, belə ki, bəstəkarın yaradıcılıq yolunun müxtəlif mərhələlərində yaranmış bəstələrinin intonasiya, metro-ritmik, məqam və struktur vəhdəti ilə təsdiqlənməsi;

–Azərbaycan bəstəkarlarının yaradıcılığında mahnı janrının inkişafında bəstəkar E.Sabitoğlunun müvafiq əsərlərinin müsbət təsir etməsi.

**Tədqiqatın elmi yeniliyi.** Əvvəldə qeyd edildiyi kimi, bəstəkar Emin Sabitoğlunun parlaq, özünəməxsus, sevilən və hamı tərəfindən tanınan mahnıları dəfələrlə milli musiqişünasların tədqiqat obyektinə çevrilmişdir. Eyni zamanda yuxarıda göstərilən toplularına daxil olan mahnıların üslub xüsusiyyətlərinin dərindən və hərtərəfli tədqiqi indiyədək heç vaxt elmi araşdırmaların əsas məqsədi olmamışdır. İlk dəfə olaraq, bu iş çərçivəsində məhz adıçəkilən müddəalar elmi tədqiqatın əsas məqsədinə çevrilmiş və təqdim olunan tədqiqatın elmi yeniliyini təşkil etmişdir. İlk dəfə olaraq, E.Sabitoğlunun toplularına daxil olan mahnılar musiqi dilinin melodiya, məqam, ritm və metr kimi mühüm elementlərinin məqsədyönlü şəkildə təhlil olunmuşdur. Həmçinin, təqdim edilmiş dissertasiya işi çərçivəsində ilk dəfə olaraq, mahnıların struktur təşkilinə, bu mahnılarda musiqi və poetik formaların qarşılıqlı əlaqəsinin xüsusiyyətlərinə, o cümlədən E.Sabitoğlunun mahnılarında fortepiano və vokal partiyasının

intonasiya bağlılığı probleminə xüsusi diqqət yetirilir. Bundan əlavə, ilk dəfə aparılan müfəssəl təhlil əsasında əldə olunan qənaətləri ümumiləşdirərək, bəstəkarın mahnılarının musiqi dilindən, əsərlərin quruluşundan, vokal miniatürlərin musiqi və poetik formalarının qarşılıqlı əlaqəsindən, həmçinin bəstəkarın mahnılarında fortepiano partiyasının rolu kimi ayrı-ayrı elementlərlə bağlı olan ən tipik üslub xüsusiyyətlərindənnəticələr çıxarılmağa cəhd edilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondadır ki, burada ilk dəfə olaraq Emin Sabitoğlunun beş topluya daxil olan mahnılarının öyrənilməsi problemi elmi iş səviyyəsində araşdırılmışdır. Həmçinin ilk dəfə olaraq müəyyən istiqamətlər, o cümlədənmelodiyanın dramaturjıtəşkili, fortepiano və vokal partiyaların qarşılıqlı intonasiya əlaqəsi problemi tədqiqatın elmi əsasınıtəşkil edir. Eyni zamanda Emin Sabitoğlunun mahnılarında poetik və musiqi formasının cədvəl şəklində verilən qarşılıqlı əlaqəsi, Azərbaycan ənənəvi musiqisi ilə qarşılıqlı əlaqə prizmasından yaranan intonasiya məzmunu, metroritmik təşkil və məqam-tonal əlaqəsi məsələlərinə digər tədqiqatçıların araşdırmalarında bu və ya digər dərəcədə toxunulsa da, məqsədyönlü şəkildə ilk dəfə olaraq, bəstəkarın beş toplusuna daxil olan vokal miniatürlərinnümunəsində öyrənilmişdir. Bu fakt Azərbaycan musiqişünaslarının ölkə bəstəkarlarının yaradıcılığının tədqiqinə həsr edilmiş tədqiqatların siyahısının genişlənməsinə səbəb olur. Bütünbelə araşdırmalar Azərbaycan milli musiqi mədəniyyətinin və elminin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Bu işin praktiki əhəmiyyəti tədqiqat zamanı əldə edilən əsaslandırılmış elmi qənaətlərin E.Sabitoğlunun mahnı yaradıcılığının tədqiqi ilə bağlı gələcək elmi işlərdə istifadə edilməsinin mümkünlüyü ilə müəyyən edilir. Bundan əlavə, bu tədqiqatın metodoloji əsaslarından və nəticələrindən milli bəstəkar yaradıcılığının ayrı-ayrı sahələrinin tədqiqinə həsr olunmuş tədqiqatlarda bəhrələnmək mümkündür. Qeyd etməliyik ki, təqdim olunan tədqiqatın materiallarından Azərbaycan bəstəkarlarının öyrənilməsi ilə bağlı fənlərin tədris proqramlarında istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işi Bakı Xoreoqrafiya Akademiyasının "Musiqi fənləri" kafedrasının iclasında müzakirə edilmiş və müdafiəyə tövsiyə olunmuşdur.

Tədqiqatın əsas müddəaları və müəyyən nəticələri müəllif tərəfindən Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlərdə (yerli və xarici) dərc olunmuş məqalələrdə, habelə beynəlxalq və respublika konfranslarının materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Təqdim olunan dissertasiya işi Bakı Xoreoqrafiya Akademiyasının "Musiqi fənləri" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işinin quruluşu tədqiqatın qarşıya qoyulan məqsəd və vəzifələri ilə şərtlənir. Dissertasiya "Giriş", iki "Fəsil", on paraqraf, "Nəticə", "İstifadə edilmiş ədəbiyyat siyahısı və "Əlavələr" bölmələrindən ibarətdir. Dissertasiyanın struktur bölmələrinin həcmi aşağıdakı kimidir: ümumi həcmi – 171 səhifə (244355 işarə),"Giriş" – 7 səhifə (10106 işarə), I fəsil – 79 səhifə (98965 işarə), II fəsil – 74 səhifə (119328 işarə) və "Nəticə" – 9 səhifə (14274 işarə).

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**"Giriş"** bölməsində tədqiqatın aktuallığı və elmi işlənmə dərəcəsi əsaslandırılır; dissertasiya işinin məqsəd və vəzifələri, metodları müəyyən edilir; müdafiəyə çıxarılan əsas müddəalar və işin elmi yeniliyi diqqətə çatdırılır; tədqiqatın nəzəri və praktiki əhəmiyyətindən söz açılır; tədqiqatın aprobasiyası və tətbiqi, işin yerinə yetirildiyi təşkilatın adı göstərilir; habelə dissertasiya işinin struktur bölmələrinin işarələrinin həm ayrılıqda həcmi, həm də ümumi həcmi dolğun olaraq təqdim edilir.

**I FƏSİL "Bəstəkar Emin Sabitoğlunun mahnı yaradıcılığının ümumi səciyyəsi"** adlanır və bəstəkarın mahnılarının mövzusuna, janr əsaslarına, onların struktur təşkilinə, eləcə də vokal miniatürlərdə poetik və musiqi formalarının qarşılıqlı əlaqə prinsipləri kimi mühüm istiqamətlərinin tədqiqinə həsr edilmişdir. I fəsil üç paraqrafdan ibarətdir.

**1.1. "Emin Sabitoğlunun mahnılarının obraz məzmunu və janrpalitrası"** adlanır və bəstəkarın mahnılarının tematik məzmun zənginliyini və janr əsaslarını işıqlandırır.

Azərbaycanın görkəmli bəstəkarı Emin Sabitoğlu milli mədəniyyətin və incəsənətin inkişafına mühüm töhfələr vermiş ziyalı nəslinə mənsubdur. Məlumdur ki, bəstəkarın atası görkəmli Azərbaycan yazıçısı Sabit Rəhmandır və Emin Mahmudovun yaradıcılıq təxəllüsü də məhz buradan qaynaqlanır. Təbii ki, bəstəkarın şəxsiyyətinin formalaşmasında onun ailəsinin böyük rolu olmuşdur. E.Sabitoğlunun həyatında eyni dərəcədə əlamətdar mərhələ onun Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq sinfində oxuması və dahi Qara Qarayevin sinfində təhsil almasıdır. E.Sabitoğlu P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında isə bəstəkarlıq ixtisası üzrə Yuri Şaporinin sinfində oxumuşdur.

E.Sabitoğlu təhsil aldıqdan sonra müxtəlif fəaliyyət sahələri ilə məşğul olmuşdur. O, musiqi bəstələməklə yanaşı, həm də uzun illər doğma Azərbaycan Dövlət Konservatoriyasında müəllim kimi çalışmışdır. E.Sabitoğlunun fəaliyyət istiqamətlərindən biri də "Azərbaycanfilm" kinostudiyasında musiqi redaktoru işi olmuşdur. E.Sabitoğlu uzun illər həm də Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri kimi fəaliyyət göstərmişdir. Məlumdur ki, həyatının son dövrü onun Türkiyəyə getməsi ilə bağlıdır.

E.Sabitoğlu yaradıcılığı boyu müxtəlif janrlara müraciət etmişdir. O, simfonik əsərlər, üç kantata, kamera-instrumental əsərləri, filmlər və tamaşalar üçün musiqilər yazmışdır. Bununla yanaşı, E.Sabitoğlunun yaradıcılığının əsasını bir-birindən maraqlı müxtəlif məzmunlu yüzlərlə mahnı təşkil edir. Eyni zamanda, mahnıvarilik istisnasız olaraq, bəstəkarın müraciət etdiyi bütün janrlara nüfuz etmişdir.

Təqdim olunan elmi araşdırmanın mərkəzində E.Sabitoğlunun toplularına daxil olan mahnılar dayanır. Tədqiqatda müxtəlif illərdə nəşr olunan beş topludan istifadə edilmişdir: "Lirik mahnılar"[7], "Dərələr"[8], "Bakı, sabahın xeyir"[9], "Gözümdə Leylisən''[10], "Nə gözəldir Azərbaycan"[11]. Təhlildən də göründüyü kimi, E.Sabitoğlunun yuxarıda adıçəkilən bütün topluları həcminə və tematik məzmununa görə fərqlənir. Eyni zamanda vokal miniatürlərin

obrazlı məzmunu və janr əsaslarından irəli gələrək,bəstəkarın toplularına daxil olan bütün mahnılar üçün səciyyəvi olan müəyyən üslub xüsusiyyətləri vardır.[6]

E.Sabitoğlunun mahnılarında tematik məzmun palitrası çox zəngindir. Bəstəkarın vokal əsərlərində çox rəngarəng şəkildə şərh edilən lirik obrazlı sfera aparıcı yer tutur. Lirik-məhəbbət mövzusunun bütün çalarları, təbiət obrazları və lövhələri – bəstəkarın toplularında parlaq və yaddaqalan musiqi əsərləri kimi nəzərə çarpır. Eyni zamanda, bəstəkarın mahnı yaradıcılığında vətənpərvərlik, o cümlədən Azərbaycan xalqının və onun nümayəndələrinin əmək şücaətini tərənnüm edən mövzulara da rast gəlinir. Və bəstəkar bu mövzulara qeyri-adi, özünəməxsus tərzdə yanaşır.

**1.2. "E.Sabitoğlunun mahnılarının struktur təşkilinin xüsusiyyətləri"** adlanır və bəstəkarın mahnılarında formayaradıcı prinsiplərin ətraflı təhlilinə həsr edilmişdir.

Bəstəkar Emin Sabitoğlunun mahnılarının ətraflı təhlili göstərdi ki, bu janrda olan onlarla əsərin böyük əksəriyyəti kupletli-nəqərat formasında (yəni nəqəratlı kuplet formasında) yazılıb. Eyni zamanda bəstəkarın hər bir konkret əsərdə bu formanı həyata keçirməsi dəyişkənliyi özünəməxsus zənginliyi və rəngarəngliyi ilə diqqəti cəlb edir. Bununla yanaşı, bəstəkarın mahnı yaradıcılığında kupletli-nəqərat formasının rəngarəngliyi ilə yanaşı, bir çox xarakterik cəhətləri də mövcuddur. Birincisi bu, ayrı-ayrı motivlərin, frazaların, hətta bütöv quruluşların kupletlərdən nəqərata təsir etməsidir. Həmçinin, bu təsir nəticəsində yaranan strukturlar çox müxtəlifdir və bu, həm struktur hissələrin, həm də təsirə məruz qalmış quruluşların həcmindən birbaşa asılıdır ("Balıqçılar nəğməsi", "Sənin üçün", "Eylədi", "Gözümdə Leylisən", "Çay", "Bakı, sabahın xeyir" , "Bura Qafqazdır", "Qəlbimdə qaldın", "Gün keçdi", "Təkcə ümid qalsın",

---

[7] Mahmudov, E.S. Lirik mahnilar [Notlar]: / – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1965. – 23 s.

[8] Mahmudov, E.S. Dərələr [Notlar]: / – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1970. – 58 s.

[9] Mahmudov, E.S. Bakı, sabahın xeyir [Notlar]: / – Bakı: İşıq, – 1975. – 62 s.

[10] Mahmudov, E.S. Gözümdə Leylisən [Notlar]: / – Bakı: İşıq, – 1980. – 42 s.

[11] Mahmudov, E.S. Nə gözəldir Azərbaycan [Notlar]: / – Bakı: İşıq, – 1986. – 26 s.

“Şirin dil”, “Güllər”, “İnsaf da yaxşı şeydir”, “Ayrılma məndən”, “Ana Kür”, “Özümdən küsürəm”, “Dağlar”).

Kuplet və nəqərat arasında intonasiya ümumiliyi metodunun geniş yayılması ilə yanaşı, E.Sabitoğlunun yaradıcılığında formanın bölmələri arasında tematik əlaqənin olmadığı nünumələrə də rast gəlinir: “Layla”, “Gilavar”, “Nə olar”.

E.Sabitoğlunun bəzi mahnıları kuplet-nəqəratdan başqa, kuplet quruluşuna da malikdir. Belə ki, ənənəvi quruluşla yanaşı, bəstəkar bəzi mahnılarında digər klassik formalardan da istifadə edir: “Sahildə” mahnısında rondo, “Bəlkə də” mahnısında üç hissəli forma.

**1.3. “Bəstəkar Emin Sabitoğlunun mahnılarında poetik və musiqi formalarının qarşılıqlı təsiri haqqında”** adlanır. Burada poetik formaların xüsusiyyətləri və onların musiqi formaları ilə qarşılıqlı əlaqəsi araşdırılır.

E.Sabitoğlunun vokal əsərlərində musiqi və poetik formaların qarşılıqlı əlaqəsinin xüsusiyyətlərini müəyyən etmək üçün bəstəkarın mahnılarında istifadə olunan şeirləri şərti olaraq 3 qrupa ayırdıq. Birinci qrupa eyni saylı hecalardan ibarət poetik əsasa malik olan mahnılar daxil edildi (27 mahnı). İkinci qrupa strukturun müxtəlif hissələri, daha dəqiq desək, nəqərat və kupleti müxtəlif saylı hecalardan təşkil olunan mahnılar aiddir (9 mahnı).Üçüncü qrupun mahnılarında poetik mətn dəyişkən hecalara malik olması ilə fərqlənir (17 mahnı).

Təhlillər göstərmişdir ki, birinci qrupa aid olan mahnılarda bəstəkar daha çox xalq poeziyasının formaları ilə ən sıx bağlı olan formalara istinad edir. E.Sabitoğlunun mahnılarında ən geniş yayılmış poetik əsərlər yeddi hecalı milli poetik forma olan bayatı və on bir hecalı qoşmadır. E.Sabitoğlunun mahnı yaradıcılığında gəraylı forması üçün xarakterik olan səkkiz hecalı poetik forma nisbətən az yer tutur.

Yeddi hecalı poetik əsaslı mahnılarda poetika və musiqi formasının uzlaşdırılmasının ən geniş yayılmış prinsipi bir musiqi cümləsinin poetik mətnin iki misrası ilə uyğun gəlməsi prinsipidir. Deməkolar ki, eyni mənzərəni səkkiz hecalı poetik əsaslı mahnılarda da müşahidə edirik. Musiqi və poetik formaların təsvir olunan qarşılıqlı əlaqə prinsipi şeirin qafiyələrindən asılı deyildir.

E.Sabitoğlunun on bir hecalı poetik əsaslı mahnıları arasında musiqi və poetik formaların qarşılıqlı təsir prinsipləri hər bir poetik misranın bütöv musiqi cümləsi ilə uyğunluğu ilə bağlıdır. Bəzən belə mahnılarda musiqi və poetik strukturların qarşılıqlı təsirinin təşkilində dəyişkənlik prinsipi üstünlük təşkil edir.

Strukturun ayrı-ayrı hissələrinin müxtəlif sayda hecaya malik olduğu ikinci qrup vokal əsərlərində yenə də ənənəvi poetik janrlarla bağlı strukturlarvə onların təşkilinin özəllikləri xüsusi yer tutur. Deməli, ikinci qrupun mahnılarının əksəriyyəti yeddi və on bir hecalı formalar üzərində qurulub.

Dəyişkən sayda hecalı şeirlərin əsas yer aldığı üçüncü qrup mahnılarında müxtəlif poetik əsərlərdəki dəyişkənliyin özü də qeyri-bərabər şəkildə ifadə olunur. Çox vaxt hecaların dəyişkənliyi musiqi ilə söz arasındakı qarşılıqlı təsir prinsiplərinin dəyişkənliyinə uyğun gəlir.

**II FƏSİL "Emin Sabitoğlunun mahnılarının musiqi dilinin xüsusiyyətləri"** adlanır və bəstəkarın musiqi dilinin melodiya, harmoniya və ritm kimi elementlərinin dərin və hərtərəfli öyrənilməsinə həsr edilmişdir. E.Sabitoğlunun mahnılarında fortepiano və vokal partiyaların qarşılıqlı intonasiya əlaqəsinin özəlliklərinə də xüsusi diqqət yetirilir. II fəsil dörd paraqrafdan, həmçinin birinci paraqraf üç bənddən ibarətdir.

**2.1. "E.Sabitoğlunun mahnılarının melodik dilinin üslub xüsusiyyətləri"** adlanır və müəyyən olunmuş problemin üç istiqamətini araşdırır: vokal miniatürlərin melodikasında intonasiya məzmununun xüsusiyyətlərinin müəyyən edilməsi, mahnıların intonasiya dilində Azərbaycan ənənəvi musiqisinin köklərinin aşkaredilməsi, həmçinin mahnıların melodikasında dramaturji təşkilin tədqiq edilməsi.

**Birinci bənd 2.1.1. "E.Sabitoğlunun mahnılarında melodik intonasiya məzmununun xüsusiyyətləri"** adlanır və bəstəkarın vokal miniatürlərinin intonasiya məzmununun palitrasını işıqlandırır.

Bəstəkar E.Sabitoğlunun melodik dilinin diqqətəlayiq üslub xüsusiyyətlərindən biri də aktiv dramaturji inkişafın olmasına baxmayaraq, əsər lakonik intonasiya məzmunu ilə seçilir ("Gənclik nəğməsi", "Bəlkə də", "Balıqçılar nəğməsi", "Bu gecə", "Sənin üçün",

“Sahildə”, “Dağlar”, “Bakı, sabahın xeyir”). E.Sabitoğlunun mahnılarının ətraflı təhlili göstərdi ki, bəstəkar əvvəlcə çox qısa, bəzən qənaətcil intonasiyalardan istifadə edərək, onları variant dəyişikliyinə məruz qoyur, bununla da vokal əsərlərin melodik xəttinin çox maraqlı və çoxşaxəli inkişafını yaradır.

**İkinci bənd 2.1.2. “E.Sabitoğlunun mahnılarının intonasiya dilində Azərbaycan ənənəvi musiqisinin köklərinin müəyyən edilməsi”** adlanır və bəstəkarın melodik dilinin milli mənbələrlə əlaqəsini müəyyən edir. Bəstəkar E.Sabitoğlunun melodik dilinin ətraflı təhlili nəticəsində onun mahnılarının inkişafı üçün çox səciyyəvi olan bəzi intonasiyaları, o cümlədən Azərbaycan ənənəvi musiqisinə məxsus intonasiyalarla sıx bağlılığı aşkarlandı.

Belə intonasiyalardan biri də gəzişmə adlanır. Yəqin ki, E.Sabitoğlunun yaradıcılığında elə bir mahnı yoxdur ki, orada gəzişmə olmasın. Bu intonasiya “Dağlar”, “Nə gözəldir”, “Heç xəbərin yoxdu sənin”, “Uzaq yaşıl ada”, “Ana Kür”, “Mavidir”, “Sənin üçün”, “Şirin dil”, “Çiçək yağışı”, “Kəpənək”, “Azərbaycan”, “Nə gözəldir Azərbaycan”, “Solmaz haqqında mahnı”, “Yusifim”, “Usta Xanoğlan”, “Tarla qəhrəmanları” mahnılarının melodikasında mühüm rol oynayır. E.Sabitoğlunun yaradıcılığında elə mahnılar var ki, melodik xəttin inkişafında gəzişmə aparıcı olmaqla yanaşı, eyni zamanda formayaradıcı intonasiyaya da çevrilir (“Gilavar”).

Azərbaycan ənənəvi musiqisində melodik xəttin təşkili üçün çox xarakterik olan istinad səsinin təkrarlanması ilə gəzişmə intonasiyası sıx bağlıdır. Burada bu intonasiya üsulu çox zaman gəzişmə ilə qovuşur. Belə ki, istinad səsinin təkrarlanması gəzişmənin intonasiyasına çevrilir və onun məqam mahiyyətini açır (“Qəhrəman Fərman”, “Mübarək olsun”, “Dərələr”, “Belə ola həmişə”, “Eylədi”, “Bu gecə”, “Sən bağışladın”).

Azərbaycan ənənəvi musiqisində melodik xəttin təşkili üçün xarakterik olan üsullardan biri də sekvensiyalardır. E.Sabitoğlunun mahnılarında çoxlu və müxtəlif obrazlı sekvensiyalara rast gəlinir. Bununla yanaşı, bəstəkarın mahnılarında Azərbaycan xalq musiqisində istifadə edilən sekvensiya növlərinin demək olar ki, bütün xüsusiyyətləri – ikili sekvensiyalar, ən kiçik motivlər əsasında inkişaf edən sekvensiyalar, aşağı istiqamətli pilləvarı sekvensiyalar, eyni

tonallı, variantlı, istinad pərdəsinə yaxınlaşdıqca motivin qısalması ilə keçən sekvensiyalar müşahidə olunur.

"Nə gözəldir", "Bu gecə", "Dərələr", "Bəlkə də", "Ayrılma məndən", "Özümdən küsürəm", "Şirin dil", "Gün keçdi" kinofilmindən mahnı, "Bura Qafqazdır", "Kəpənək", "Nə gözəldir Azərbaycan" mahnılarının melodik xəttinini təşkilində sekvensiyalar və sekvensiyalı üsullar mühüm rol oynayır.

Qeyd edək ki, Azərbaycan xalq mahnılarında olduğu kimi, E.Sabitoğlunun vokal miniatürlərində də gəzişmə intonasiyaları adətən kupletin inkişafında, sekvensiyalıq isə nəqəratın melodik inkişafında cəmləşir ("Gənclik nəğməsi", "Nə danışdın, nə dindin", "Güllər", "Gözümdə Leylisən", "Nə olar", "Zaman", "Vətən bayatıları", "Yusifim").

**Üçüncü bənd 2.1.3. "E.Sabitoğlunun mahnılarında melodikanın dramaturji təşkili"** adlanır və burada bəstəkar vokal miniatürlərində dramaturji inkişafın əsas prinsiplərini açır.

Bəstəkarın mahnılarının melodikanın dramaturji təşkili nöqteyi-nəzərindən ətraflı təhlili göstərir ki, E.Sabitoğlu bu məsələdə daha çox təşkilin iki növünə meyil edir. Bu isə iki aparıcı prinsipin üstünlük təşkil etməsinə gətirib çıxarır. Bu prinsiplərdən biri əsərin təşkilində melodik xəttin yüksəkliyinin tədricən enməsinə, yəni aydın nəzərə çarpan enmə tendensiyasına əsaslanır ("Bu gecə", "Sən bağışladın", "Belə ola həmişə", "Nə danışdın, nə dindin", "Nə gözəldir Azərbaycan").

E.Sabitoğlunun yaradıcılığında bütün mahnı boyu melodikanın dramaturji təşkilinin daha geniş yayılmış bir prinsipi isə nəqəratın melodik yüksəkliyinin kupletin melodik frazalarından mahiyyət etibarilə yüksək olması prinsipidir ("Bakı, sabahın xeyir","Qəlbimdə qaldın", "Vətən bayatıları", "Kəpənək", "Zaman", "Mübarək olsun", "Solmaz haqqında mahnı", "Muğanın tacı", "Usta Xanoğlan", "Tarla qəhrəmanları", "Dağlar", "Heç xəbərin yoxdur sənin", "Uzaq, yaşıl ada","Gözümdə Leylisən", "Mavidir", "Sənin üçün", "Ayrılma məndən", həmçinin, "Balıqçılar nəğməsi"və "Gilavar").Melodik xəttin bütün mahnı boyu dramaturji təşkilinin bu prinsipi çox geniş yayılıb və E.Sabitoğlunun nəqəratlı kuplet formasında yazılmış bütün mahnılarını demək olar ki, əhatə edir. Eyni zamanda melodiyanın bu

təşkili forması, əksər hallarda inkişafın məqam təşkilinin xüsusiyyətləri ilə də bağlıdır. Formanın müxtəlif hissələrində melodikanın məqam əsaslara söykənməsi müəyyən növ strukturları formalaşdırır. Mahnının kupletlərində, bir qayda olaraq, bütün melodik frazalar aşağı məqam istinadının gəzişməsinə əsaslanır. Nəqəratda melodik motivlərin mərkəzi yuxarı məqam istinadıdır. Birlikdə götürüldükdə, məqam funksiyalarının formanın müxtəlif hissələri arasında belə bölgüsü mahnının nəqəratında aydın yüksəlişə malik melodik xətti yaradır.

E.Sabitoğlunun yaradıcılığında vokal miniatürlərin tam dramaturji təşkilində melodik vasitələrin mühüm rolu aşağıdakı xüsusiyyətdə ifadə olunur. Bu, müvafiq intonasiyalarla mahnının adını və ya əsas məzmununu vurğulayan bir üsuldur. Bəstəkar bu üsulu iki vasitə ilə həyata keçirir. Birinci vasitə, mahnının adını və ya əsas məzmununu digər melodik materialdan əhəmiyyətli dərəcədə fərqli olanintonasiyalarla vurğulamaqdır.

Nəticə etibarilə dinləyicinin diqqəti istər-istəməz bu frazaya və ya ifadəyə cəmlənir. İkinci üsul isə leytmotiv inkişaf prinsipi ilə bağlıdır. Belə hallarda bəstəkarın mahnının adını və ya əsas məzmununu vurğulamaq üçün istifadə etdiyi intonasiyalar digər materiallardan çox da fərqlənmir. Lakin əsərin əsas ideyası hər dəfə mətndə veriləndə, dərhal melodik xəttdə həmin hissə eyni və ya dəyişməyən intonasiyalarla müşayiət edilir.

**İkinci paraqraf 2.2. "E.Sabitoğlunun mahnılarında fortepiano və vokal partiyalarının qarşılıqlı intonasiya əlaqəsi"** adlanır və bəstəkarın mahnılarında ifaçıların qarşılıqlı münasibətlərinin araşdırılmasına həsr olunub.

E.Sabitoğlunun demək olar ki, bütün mahnıları aparıcı rol oynayan solist və fortepiano partiyalarının üzvi surətdə qarşılıqlı əlaqəsinə nümunədir. E.Sabitoğlunun mahnılarında fortepiano partiyasınını mühüm xüsusiyyətlərindən biri onun solist partiyası ilə melodik vəhdət təşkil etsə də, müxtəlif formalarda ifadə olunmasıdır. Bunu daha qabarıq ifadə etmək üçün müşayiət partiyası çox zaman vokal partiyanı təkrarlayır. Belə vəhdət nadir hallarda hərtərəfli olur, belə ki, çox zaman qismən bağlılıq nəzərə çarpır. "Sahildə" mahnısında partiyalar arasında xüsusi qarşılıqlı əlaqə növü nümayiş

etdirilir. Bu mahnıda fortepiano partiyası yığcam vokal ifadələri ayrı-ayrı intonasiyalarla tamamlayır, sanki onun əvəzinə "danışır". Bundan əlavə, fortepiano müşayiətində partiyalar arasında olan ümumi intonasiyalar fortepianonun oktava və akkord ikiləşmələri sayəsində daha zəngin səslənir.

Melodik bağlılığın başqa bir növü fortepiano partiyasının adətən girişdən, solistin partiyasından alınan tematizm ilə verilməsi ilə ifadə oluna bilər ("Belə ola həmişə"). "Dağlar" mahnısında fortepiano partiyasının solo girişində vokal partiyanın nəqəratın ortasından götürülmüş intonasiyaları yer alır.

Çox vaxt intonasiya vəhdətinin hər iki növü, yəni vokal partiyanın melodik xəttinin müşayiətdə təkrarlanması və müstəqil fortepiano motivlərinin solist partiyasından götürülmüş mövzularla ifadə edilməsi qarşılıqlı təsirdə olur ("Ana Kür").

E.Sabitoğlunun mahnılarında ifaçıların partiyaları arasında qarşılıqlı intonasiya təsirinin olmadığı nümunələrə daha az rast gəlirik. Belə nümunələrdə, bir qayda olaraq, fortepiano partiyası xarakterik intonasiyalara malikdir. Bu intonasiyalar parlaqlığına və yaddaqalan olmasına görə solistin partiyasından heç də geri qalmır. Eyni zamanda bu intonasiyalar əsas bədii obrazla ziddiyyət təşkil etməyərək onun çoxsaylı tərəflərini açır ("Bəlkə də").

**Paraqraf 2.3. "E.Sabitoğlunun mahnılarında məqam-tonal əsas"** adlanır və bəstəkarın miniatürlərində milli məqam əsasını araşdırır. E.Sabitoğlunun vokal miniatürlərinin üslub xüsusiyyətlərinin araşdırılmasında mühüm mərhələ bəstəkarın mahnılarının məqam-tonallıq əsasının öyrənilməsi olmuşdur. Demək lazımdır ki, Azərbaycan məqamları və onlara xas olan ifadə imkanları bəstəkarın hər bir mahnısının parlaq bədii obrazını yaratmaq üçün əsas vasitələrdən birinə çevrilir. Azərbaycan məqamları və onun mahiyyəti, ilk növbədə, əsərlərin melodik xəttini təşkil edən intonasiyalarda təzahür etməsi ilə səciyyələnir. Ona görə də E.Sabitoğlunun mahnılarının məqam əsaslarının öyrənilməsi prosesində onların intonasiya məzmunu məsələsinə mühüm yer verilir.

E.Sabitoğlu musiqisində demək olar ki, bütün Azərbaycan məqamlarının ifadə imkanlarından və intonasiya xüsusiyyətlərindən istifadə edir. Bununla belə, bəstəkarın beş toplusuna daxil olan bütün

vokal miniatürləri təhlil edərək, müəllifin müəyyən məqamlara üstünlük verməsini müəyyənləşdirməyə nail olduq.

Belə ki, E.Sabitoğlunun mahnılarında ən parlaq və ifadəli məqam rastdır (“Mübarək olsun”, “Gün keçdi” kinofilmindən mahnı). E.Sabitoğlunun mahnılarındakı digər mühüm məqam isə şüştərdir (“Heç xəbərin yoxdu sənin”). E.Sabitoğlunun bəzi mahnılarının inkişafında bayatı-şiraz məqamı mühüm rol oynayır. E.Sabitoğlunun kamera-vokal musiqisindəşur məqamı da az əhəmiyyət kəsb etmir (“İnsaf da yaxşı şeydir”).

**Paraqraf 2.4. “E.Sabitoğlunun mahnılarının metro-ritmik təşkilinin xüsusiyyətləri” adlanır** və bəstəkarın mahnılarının ritmik inkişaf xüsusiyyətlərinin və metrik əsaslarının öyrənilməsinə həsr edilmişdir.

E.Sabitoğlunun mahnılarındakı metro-ritmik təşkilin xüsusiyyətlərinin ətraflı tədqiqi göstərir ki, bu mahnıların musiqi dilinin ən səciyyəvi xüsusiyyətlərindən biri də ritmik fiqurun bütün əsər boyu və yaxud müəyyən hissələrdə ardıcıllığı və ostinat təkrarlanmasıdır (“Çoban Boran”, “Bura Qafqazdır”, “Bəlkə də”, “Vətən bayatıları”, “Bu gecə”, “Sən bağışladın” “Güllər”, “Sahildə”).

Bəstəkar E.Sabitoğlunun ritmik ostinat inkişafı üzərində qurulduğudigər bir mahnı qrupundakı əsərlər isə formanın ayrı-ayrı hissələrinin müxtəlif ritmik fiqurlara əsaslanmasından ibarətdir (“Axtar sən məni”, “Zaman”, “Nə gözəldir Azərbaycan”, “Qəhrəman Fərman”).

E.Sabitoğlunun mahnılarının metro-ritmik təşkilinin səciyyəvi cəhəti ritmik variantlıqdır (“Uzaq, yaşıl ada”, “Çay”, “Heç xəbərin yoxdu sənin”, “Tərlan bacım”, “Solmaz haqqında mahnı”).

E.Sabitoğlunun mahnılarındakı ritmik inkişaf metodları sırasında bəstəkarın vokal miniatürlərində (“Kəpənək”, “Sahildə”) səsin ifadəsinin yaradılmasında ritmin rolu xüsusi əhəmiyyət kəsb edir.

Bəstəkar E.Sabitoğlunun toplularına daxil olan bir çox mahnılarının metro-ritmik təşkilinin digər bir səciyyəvi cəhəti rəqs əsaslarına malik olmasıdır. Onların bir çoxu bu və ya digər şəkildə milli rəqs elementləri ilə bağlıdır. Qafqazda ən məşhur olan qaytağı rəqsi “Bura Qafqazdır” mahnısının əsasını təşkil edir. “Özümdən

küsürəm" vokal miniatürü Tanqo metro-ritmik əsasına malikdir və ümumiyyətlə, bu rəqsin üslubuna əsaslanma nümunəsi nümayiş olunur. Lakin bəstəkar mahnılarında rəqs elementlərinə istinad edərkən, onlarda daha çox Vals elementini təcəssüm etdirir ("Sahildə", "Dön, yenə dön", "Bəlkə də", "Nərminin nəğməsi", "Uzaq, yaşıl ada", "Gənclik nəğməsi", "Güllər").

Qeyd edək ki, valsın ən xarakterik xüsusiyyəti olan üç təqtilik bəstəkarın rəqs əsasına malik olmayan vokal miniatürlərində də özünü göstərir. Bəstəkarın hər hansı bir metro-ritmik üstünlüklərindən bəhs edərkən, onun vokal miniatürlərində 6/8 ölçüsünün geniş istifadə olunmasına diqqət yetirmək lazımdır. Şübhəsiz ki, bəstəkarın vokal miniatürləri arasında bu metrik əsasın üstünlük təşkil etməsi E.Sabitoğlunun musiqi dilinin 6/8 ölçüsünün səciyyəvi olduğu milli ənənəvi musiqi ilə çox möhkəm bağlılığından irəli gəlir. Bu baxımdan bəstəkarın bəzi mahnılarında 6/8 və ¾ ölçülərinin daxili dəyişkənliyi müəllifin musiqi dilinin milli ənənəvi musiqi ilə bağlılığının metro-ritmik əlamətidir ("Nə olar"). Ümumiyyətlə, bəstəkarın bir çox vokal miniatürlərində metrik dəyişkənlik özünü büruzə verir: "Ana Kür" "Bakı, sabahın xeyir", "Təkcə ümid qalsın", "Çiçək yağışı", "Zaman".

**"Nəticə"də** tədqiqatın əsas müddəaları ümumiləşdirilir.

Təqdim olunan elmi araşdırmada bəstəkar Emin Sabitoğlunun beş toplusuna daxil edilmiş mahnıların üslub xüsusiyyətlərinin dərindən və hərtərəfli tədqiq edilməsi məqsədini seçərək, buna nail olmağın həlli yollarını müəyyənləşdirdik.

1. Tədqiqatın ilk mərhələsində E.Sabitoğlunun beş toplusuna daxil olan mahnıların üslub xüsusiyyətlərinin tədqiqi ilə bəstəkarın vokal miniatürlərinin tematik məzmunu və janr palitrasını müəyyən etdik. Mahnılarda tematik məzmunun palitrası çox zəngindir, lirik-məhəbbət mövzularından başlayaraq təbiət obrazlarının və lövhələrinin tərənnümünə qədər bütün mümkün çalarlarda təqdim olunan lirik obrazlar aləmi aparıcı yer tutur. Bəstəkarın mahnı yaradıcılığında Azərbaycan xalqının əmək şücaətinin və vətənpərvərlik hisslərinin tərənnümü mövzuları mühüm əhəmiyyət kəsb edir. E.Sabitoğlu yuxarıda qeyd olunan bütün mövzuların qeyri-adi və geniş şəkildə şərhini aparmışdır. Vokal miniatürlərin təhlili

göstərdi ki, bəstəkarın mahnılarının ən mühüm üslub xüsusiyyətlərindən biri də müxtəlif janrların sintezidir.

2. Tədqiqatımızın növbəti vəzifəsi E.Sabitoğlunun mahnılarının struktur təşkili xüsusiyyətlərinin araşdırılmasıdır. Bəstəkarın mahnılarının çox hissəsi kupletli-nəqərat formasında (yəni nəqəratlı kuplet formasında) yazılmışdır. Mahnı janrında geniş yayılmış bu forma E.Sabitoğlunun yaradıcılığında çox dəyişkən şəkildə həyata keçirilir. Belə ki, hər bir konkret əsər struktur zənginliyi və rəngarəngliyi ilə diqqəti cəlb edir.

E.Sabitoğlunun mahnılarındakı kupletli-nəqərat formasının səciyyəvi cəhətlərindən biri də ayrı-ayrı motivlərin, frazaların, hətta bütöv quruluşların kupletdən nəqərata nüfuz etməsidir. Nəticə etibarı ilə, nəqəratlı kupletin ənənəvi forması əsasında çox vaxt ikinci dərəcəli forma əmələ gəlir. Qeyd etmək lazımdır ki, E.Sabitoğlunun yaradıcılığında nəqəratlı kuplet intonasiyasının təkrarının olması vokal miniatürün poetik əsası ilə bağlılığından irəli gəlmir. E.Sabitoğlunun mahnı yaradıcılığında kupletli-nəqərat formasının aparıcı olmasına baxmayaraq, onun yazdığı mahnılar arasında başqa strukturlara da rast gəlinir.

3. Mahnılarda poetik və musiqi formalarının qarşılıqlı əlaqə prinsiplərinin təhlili göstərdi ki, E.Sabitoğlu daha çox xalq şeiri formaları ilə ən sıx bağlı olan belə poetik formalara (bayatı, qoşma, gəraylı) müraciət edir. Mahnılarındakı musiqi və poetik formaların uyğunluğu məsələsində belə qənaətə gəlirik ki, poetik və musiqi formalarının qarşılıqlı əlaqə prinsiplərinə təsir edən əsas amil şeirin misrasındakı hecaların sayıdır. Deməli, poetik formaya əsaslanan miniatürlərdə və ya onun hissələrində az sayda heca – yeddi və ya səkkiz heca ilə səciyyələnən nisbilik prinsipi üstünlük təşkil edir və burada poetik mətnin iki misrası bir musiqi cümləsinə uyğun gəlir. Poetik formada hecaların sayı daha çox – doqquz, on bir və ya on beş olan vokal əsərlərdə hər misra bütöv musiqi cümləsi təşkil edir. E.Sabitoğlunun müvafiq cəhətlərə malik mahnılarının ətraflı təhlili göstərir ki, musiqi formasının təşkili xüsusiyyətləri ilə poetik formanın qafiyə xüsusiyyətləri arasında birbaşa əlaqə yoxdur.

4. E.Sabitoğlunun beş toplusuna daxil edilmiş vokal miniatürlərin üslub xüsusiyyətlərinin müəyyənləşməsində əsas vəzifə

bəstəkarın musiqi dilinin əsas elementlərinin ətraflı tədqiqi olmuşdur. Bu problemin həlli öz növbəsində müəllifin musiqi dilinin əsas elementlərinin hər birini, xüsusilə melodiyanı, məqam-tonal və metro-ritmik əsasları öyrənməyi tələb edirdi.

5. E.Sabitoğlunun mahnılarının üslub cəhətlərinin müəyyənləşdirilməsi istiqamətində aparılan tədqiqat işində mühüm mərhələ bəstəkarın melodik dilinin üslub xüsusiyyətlərinin müəyyən edilməsi olmuşdur. Təhlil zamanı müəyyən edə bildik ki, bəstəkarın melodik dilinin ən diqqətçəkən üslub xüsusiyyətlərindən biri də əsərin intonasiya məzmununun heyrətamiz dərəcədə lakonikliyidir. Həmçinin bəstəkar E.Sabitoğlunun melodik dilinin ətraflı təhlili onun mahnılarının inkişafı üçün çox xarakterik olan bəzi intonasiyaları müəyyən etməyə imkan verdi. Əlamətdar haldır ki, bütün bu intonasiyalar Azərbaycan ənənəvi musiqisi üçün çox səciyyəvi olan intonasiyalarla sıx bağlı olmuşdur. Belə intonasiyalardan gəzişməni – Azərbaycan ənənəvi musiqisinin melodiyasında ən geniş yayılmış intonasiyanı qeyd edək. İstinad səsinin təkrarlanması gəzişmənin intonasiyası ilə sıx bağlıdır və bu da Azərbaycan ənənəvi musiqisinin melodik xəttinin təşkili üçün çox xarakterikdir. Melodik xəttin təşkilinin ən xarakterik üsullarından biri də Azərbaycan ənənəvi musiqi əsərlərinə xas olan xüsusiyyətləri nümayiş etdirən sekvensiyalardır.

E.Sabitoğlunun vokal miniatürlərində melodik təşkilin növbəti çox mühüm xüsusiyyəti mahnılarda melodikanın dramaturji inkişafının xüsusiyyətidir. Həmin məsələdə xarakterik xüsusiyyətləri də müəyyən edə bildik. Bu, dramatik inkişafın iki aparıcı prinsipinin üstünlüyüdür: 1. Melodik xəttin yüksəkliyinin tədricən azalması; 2. Melodikanın inkişafının müəyyənləşməsi.

E.Sabitoğlunun yaradıcılığında vokal miniatürlərin tam dramaturji təşkilində melodik vasitələrin mühüm rolu həm də mahnının adının və ya əsas ideyasının müvafiq intonasiyalarla işıqlandırılması texnikasından istifadə edilməsində ifadə olunur.

6. E.Sabitoğlunun vokal miniatürlərin intonasiya dilinin tədqiq etdiyi sahələrdən biri isə bəstəkarın mahnılarındakı fortepiano ilə vokal partiyaların qarşılıqlı intonasiya xüsusiyyətlərinin öyrənilməsidir və bu zaman müəyyən qənaətlər əldə etdik.

E.Sabitoğlunun mahnılarında ifaçıların hər iki partiyasının müştərək və mümkün qədər çox oxşar intonasiyalara uyğun inkişaf etdiyi vokal və fortepiano partiyaları arasında qarşılıqlı təsir növünə üstünlük verilir. Çox vaxt bəstəkarın vokal miniatürlərinin əsas səciyyəvi cəhəti vokal və fortepiano partiyalarının melodik vəhdətidir. E.Sabitoğlunun mahnılarında ifaçıların partiyaları arasında qarşılıqlı intonasiya təsirinin olmadığı nümunələrə az rast gəlinir.

7. Tədqiqatda üslub xüsusiyyətlərin araşdırılmasında mühüm sahəni mahnıların məqam-tonallıq əsasının öyrənilməsi təşkil edir. Azərbaycan məqamları və onlara xas olan ifadə imkanları bəstəkarın hər bir mahnısında parlaq bədii obraz yaratmağın əsas vasitələrindən birinə çevrilir. Bəstəkar Azərbaycan məqamlarının əsasını təşkil edən əsərin emosional boyanması kimi vasitəsindən mühüm bir xüsusiyyət kimi istifadə edir. Nəticədə milli məqam bəstəkar E.Sabitoğlunun mahnılarında emosional rəngarənglik yaradan mühüm vasitələrdən birinə çevrilir.

8. E.Sabitoğlunun mahnılarında metrik və ritmik təşkilin səciyyəvi xüsusiyyətlərinin müəyyən edilməsi məsələsinin elmi həlli tədqiqatımızın mühüm mərhələlərindən biri olmuşdur. Tədqiqat zamanı müəyyən edilmişdir ki, ən xarakterik xüsusiyyətlərdən biri bütün əsər və ya onun hər hansı hissəsi boyunca müəyyən bir ritmik nümunənin ardıcıllığı və ya ostinato təkrarlanmasıdır. Digər xarakterik xüsusiyyəti isə ritmik variantlıqdır. E.Sabitoğlunun mahnılarında ritmin ifadə imkanlarının ayrıca tətbiq sahəsi bəstəkarın bəzi vokal miniatürlərində səsin saxlanılması effektinin yaradılmasından istifadə olunması, eləcə də rəqs metrinə və ritminə əsaslanmadır.

Vokal miniatürlərin metrik əsası nöqteyi-nəzərindən bəstəkar burada tez-tez üç təqtili metrdən istifadə edir. Onun vokal miniatürlərində çox vaxt 6/8 ölçüsü geniş yayılmışdır. 6/8 və ¾ ölçülərinin daxili dəyişkənlik elementlərinə malik olması E.Sabitoğlunun musiqi dilinin milli ənənəvi musiqi ilə sıx bağlılığı ilə əlaqədardır.

Beləliklə, bəstəkar E.Sabitoğlunun mahnılarının üslub xüsusiyyətlərini ətraflı tədqiq edərək, aşağıdakı mühüm nəticələrə gəlirik.Parlaq fərdi yaradıcılığa malik olan bəstəkar Emin Sabitoğlu

milli musiqi mədəniyyətinə möhkəm və dərin köklərlə bağlıdır. Onun əsərlərinin obraz və janr palitrası bəstəkarın vətəninə, onun tarixinə və xalqına olan məhəbbətini və heyranlığını nümayiş etdirir. Emin Sabitoğlunun müraciət etdiyi poetik formaların quruluşu xalq poeziyası janrlarının forma və quruluşuna çox yaxındır. Bəstəkarın melodiyalarının hər bir elementi daha çox Azərbaycan milli ənənəvi musiqi dilinin xüsusiyyətlərinə əsaslanır. Bununla yanaşı, bəstəkarın təhlil etdiyimiz vokal miniatürlərinin hər biri müəllifin dünya akademik musiqi ənənələrinə dərindən bələd olduğunu nümayiş etdirir. Bəstəkarın mahnılarının struktur təşkili məsələsində klassik ənənələrə əsaslanma aydın görünür. Eyni zamanda təhlil etdiyimiz vokal miniatürlərinin hər biri müəllifin dünya akademik musiqi ənənələrinə dərindən bələd olduğunu nümayiş etdirir. Mahnıların struktur təşkili məsələsində klassik ənənələrə əsaslanma da aydın görünür. Həmçinin, hər bir mahnı müəyyən olunmuş formalara və ənənələrə yeni tərzdə nəzər salmaq bacarığını nümayiş etdirir. Bəstəkarın musiqi əsərinin hər bir komponentinə olan münasibəti əsərdə tematik məzmunun və bədii obrazın mümkün qədər dəqiq və aydın şəkildə açılması zərurəti ilə müəyyən olunur.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**


1. İsgəndərova, S.R. Bəstəkar Emin Sabitoğlunun yaradıcılığında mahnı janrı və onun bəzi üslub xüsusiyyətləri barədə // Doktorantların və gənc tədqiqatçıların XXI Respublika elmi konfransı, – Bakı: –24-25 oktyabr, – 2017, – s. 243-245.
2. İsgəndərova, S.R. Emin Sabitoğlu musigisinin səhnə və kinoda təcəssümü // – Bakı: Sənət Akademiyası, – 2018. №1 (4), – s. 106-108.
3. İsgəndərova, S.R. Emin Sabitoğlunun yaradıcılığı müasir musiqişünaslıq elminin obyektivində // – Bakı: Sənət Akademiyası, – 2018. №2 (5), – s. 111-113.
4. Искандерова, С.Р. Принципы драматургической организации мелодической линии в песнях Э.Сабитоглу: [Электронный ресурс] / Harmony – 11 ноября, 2018.

URL:http://harmony.musigidunya.az/rus/archivereader.asp?txtid=781&s=1&iss=29
5. Искандерова, С.Р. Мелодические и ритмические особенности музыкальные языка в песнях вокального сборника “Lirik mahnılar” Э.Сабитоглу: [Электронный ресурс] / Harmony – 11 ноября, 2018. URL:http://harmony.musigidunya.az/rus/archivereader.asp?iss=29&prt=14
6. Искандерова, С.Р. Интонационная общность куплета и припева как главная черта структурной организации песен Э.Сабитоглу // – Баку: Актуальные проблемы музыкальной науки, культуры и образования, – 2019. №1 (6), – с.74-82.
7. Искандерова, С.Р. Интонационная лаконичность как характерная черта мелодического развития в песнях Э.Сабитоглу // – Баку: Musiqi dünyası, – 2019. № 1/78, – с. 125-128.
8. Искандерова, С.Р. Истоки азербайджанской традиционной музыки в интонационном языке песен Э.Сабитоглу // Müasir Azərbaycan bəstəkarı və zaman, – Баку: – 11-12 апреля, – 2019, – с. 96-104.
9. Искандерова, С.Р. Ладовая основа в песнях Э.Сабитоглу // V Международный конгресс музыки и танца, – Турция: – 22-26 июля, – 2019, – с. 155-158.
10. Искандерова, С.Р. Об интонационном взаимодействии фортепианной и вокальной партий в песнях Э.Сабитоглу // – Баку: Учёные записки АГУКИ, – 2020. № 28, – с. 136-142.
11. Искандерова, С.Р. О взаимодействии поэтической и музыкальной формы в песнях Э. Сабитоглу, имеющих в основе стабильное количество слогов стихотворения // Прага: Paradigmata poznani, – 2020. № 4, – с. 73-77.
12. Иманова, С.Р. Особенности ритмической организации песен Э.Сабитоглу // – Киев: Вестник Киевского национального университета культуры и искусств. Серия: Музыкальное искусство, – 17.05.2021. №13, – с. 61-72.

Dissertasiyanın müdafiəsi 30 noyabr 2023-cü il tarixində saat 12:00 Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küçəsi 98.

Dissertasiya ilə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 30 oktyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 26.10.2023

Kağız formatı: 60×84 1/16

Həcm: 37273

Tiraj: 30